

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 38 (23.680)

25 fevral 2021-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik

## Muxtar respublikada uşaqların hüquq və mənafelərinin qorunması diqqət mərkəzindədir

***Muxtar respublikada yaşayan, dövlətin diqqət və qayğısı ilə əhatə olunan uşaqların qanunla müəyyən edilmiş hüquq və mənafelərinin müdafiəsi ötən il də diqqət mərkəzində saxlanılmış, bir sıra tədbirlər görülmüşdür.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş və icrası uğurla başa çatmış "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası nəzarətdə saxlanılmış, sağlamlıq imkanları məhdud uşaqların təhsil hüquqlarının təmin olunması, məsafədən (distant) təhsilin əhatə dairəsinin genişləndirilməsi, sosial reabilitasiyasında müasir üsulların tətbiq edilməsi, onların cəmiyyətə inteqrasiyası üçün əlverişli şəraitin yaradılması məqsədilə bir sıra işlər görülmüşdür. Belə ki, 2020-2021-ci tədris ilində ümumtəhsil müəssisələrinin, distant tədrisin Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbin birinci siniflərinə, ümumilikdə, 73, məktəbdənkənar müəssisələrin dərnəklərinə 119, şahmat və uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə 229, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin defektoloji bölmələrinə 102 sağlamlıq imkanları məhdud uşaq cəlb edilmişdir. Defektoloji bölmənin və psixoloji dəstək xidmətinin mütəxəssisləri tərəfindən Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində uşaqlarla fərdi qaydada reabilitasiya yönümlü məşğələlər aparılmış, mərkəzin təlim-tərbiyə işləri üzrə mütəxəssislərinə maarifləndirici təlimlər keçirilmişdir.

Hazırda ümumtəhsil məktəblərində 1063, Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə 9, Distant Tədris Mərkəzində 20, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində 75, ümumtəhsil məktəblərində fəaliyyət göstərən hazırlıq qruplarında müvafiq kateqoriyadan olan 1188 uşaq təhsil, 6 uşaq isə Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində təlim-tərbiyə alır.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində 38 uşağın təhsil aldığı art terapiya kursları təşkil olunmuş, müvafiq mərkəzdə kinect oyun otağında keçirilən məşğələlərə, musiqi terapiyasına, psixoloji dəstək xidmətinə, təlim-bərpa otağına isə, ümumilikdə, 136 uşaq cəlb edilmiş, həmçinin mərkəzdə audiokitabxana fondunun zənginləşdirilməsi, sağlamlıq imkanları məhdud uşaqlara evlərində səyyar kitabxana xidməti göstərilməsi diqqətdə saxlanılmışdır.

Bu dövrdə sağlamlıq imkanları məhdud 2 uşaq peşə məktəblərinə cəlb edilmiş, ümumtəhsil məktəblərinin yuxarı siniflərində təhsil alan şagirdlərə əmək bazarının tələbinə uyğun fəaliyyət göstərən peşə ixtisas kursları haqqında məlumatlar verilmişdir. Ümumtəhsil məktəblərini bitirən sağlamlıq imkanları məhdud uşaqlardan 29 nəfəri orta ixtisas və ali təhsil müəssisələrinə qəbul olmuşdur.

Sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi və tibbi reabilitasiyası da diqqət mərkəzində saxlanılmışdır. Belə ki, 2020-ci il ərzində bu qəbildən olan uşaqların sosial müdafiəsini daha da gücləndirmək məqsədilə 4163 uşağa müavinətlər ödənilmiş, müvafiq kateqoriyadan olan uşaqlar texniki reabilitasiya və digər köməkçi vasitələrlə təmin edilmiş, onlara protez-ortopedik xidmətlər göstərilmiş, 29 nəfərə veloaraba və köməkçi reabilitasiya vasitələri verilmişdir.

Həmçinin Naxçıvan Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 173 uşağın müalicəsinə köməklik göstərilmişdir. Bu kateqoriyadan olan uşaqların istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtlarının səmərəli təşkili, eləcə də cəmiyyətin ictimai-mədəni həyatındakı iştirakını təmin etmək məqsədilə onlar arasında intellektual oyunlar, idman yarışları, rəsm müsabiqələri keçirilmiş, film və tamaşalar nümayiş olunmuş, ekskursiyalar təşkil edilmişdir. Keçirilən müsabiqə və tədbirlərdə fərqlənən sağlamlıq imkanları məhdud uşaqlar mükafatlandırılmışlar.

Bundan əlavə, 15 sentyabr – Bilik Günü ilə əlaqədar xüsusi kateqoriyadan olan 450-dən çox uşaq məktəbli paltarı, dərs ləvazimatları və qış geyimləri ilə təmin edilmişlər. Hesabat dövrü ərzində 1 uşaq övladlığa, valideyn himayəsini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqların ailə mühitində yaşamasının təmin olunması məqsədilə 12 uşaq isə qəyyumluq və ya himayəyə verilmiş, valideyn himayəsindən məhrum olmuş uşaqların evlərində monitorinqlər təşkil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na əsasən 12 uşaq müəssisəsində dövri monitorinq keçirilmişdir.

Uşaq əhalisinin sağlamlığının qorunması, sağlamlıq tədbirlərinin yaxşılaşdırılması və uşaqlara müasir tələblərə uyğun tibbi xidmətin göstərilməsi dövlətimiz tərəfindən daim diqqət mərkəzində saxlanılır.

2020-ci il ərzində 4624 uşaq doğulmuş və muxtar respublikada uşaqların sayı 165228 olmuşdur. Muxtar respublikanın tibb müəssisələrində doğulan uşaqlarda peyvəndləmə işlərinin vaxtlı-vaxtında aparılması diqqətdə saxlanılmışdır.

2020-ci ildə yetkinlik yaşına çatmayanlara muxtar respublikanın bütün tibb müəssisələrində səhiyyə xidməti və icbari tibbi sığorta çərçivəsində ödənişsiz tibbi xidmət göstərilmişdir. Uşaqların icbari dispanserizasiyasının təmini məqsədilə 45974 nəfər müayinə olunmuş, onlardan 9252 nəfəri dispanser nəzarətə götürülmüş, dispanser nəzarətə alınmış 307 uşağın müayinəsi aparılmışdır. Bu dövrdə elektron sağlamlıq kartlarının verilməsi işi davam etdirilmiş, ötən dövr ərzində 617 elektron kart alınıb valideynlərə paylanmışdır.

2020-2021-ci tədris ilində muxtar respublikanın ümumtəhsil məktəblərində 52286 şagird təhsil alır ki, bunlardan da 25489-u qızdır. 2019-2020-ci tədris ilində ümumtəhsil məktəblərini bitirmiş şagirdlərdən 2381-i ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmuş, ali məktəblərə qəbul olunan 275 nəfəri 500-700 arası bal toplamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 9 iyul tarixli Sərəncamı ilə 2020-ci ildə muxtar respublikada xüsusi istedadı olan 2 məktəblinin adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılmış və onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülmüşlər.

Ötən il muxtar respublikanın ümumtəhsil məktəblərində 31 interaktiv dərs keçilmişdir ki, bu da uşaqların müasir təhsil sistemi əsasında biliklərə yiyələnməsinə şərait yaradır. Həmçinin uşaq və gənclərin maraq və bacarıqlarının, intellektual səviyyələrinin və yaradıcılıq qabiliyyətlərinin inkişafı, asudə vaxtlarının səmərəli təşkili məqsədilə Şərur və Culfa rayon məktəbdənkənar müəssisələrində, eləcə də Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyində innovativ dərnəklər fəaliyyətə başlamışdır.

Bu gün muxtar respublikada 25497 uşaq idmanla məşğul olur ki, onlardan da 7980 nəfərini qızlar təşkil edir. İdmanla məşğul olan uşaqlar istər muxtar respublikada, istərsə də muxtar respublikadan kənarda keçirilən idman yarışlarında yüksək nailiyyətlər əldə etmiş, Azərbaycan birinciliyində, Azərbaycan çempionatlarında, beynəlxalq və açıq turnirlərdə 36 yer qazanmışlar.

2020-2021-ci tədris ilində isə müvafiq məktəblərə müxtəlif ixtisaslar üzrə 935 şagird qəbul olmuşdur. Cari ildə də muxtar respublikada uşaq hüquqlarının həyata keçirilməsinə nəzarət edən dövlət orqanları fəaliyyət istiqamətlərinə uyğun olaraq uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquqlarının və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühitin yaradılması, uşaq hüquqlarının pozulmasına səbəb olan halların aradan qaldırılması və səbəb ola biləcək halların qarşısının alınması istiqamətində öz profilaktik fəaliyyətini gücləndirəcəkdir.







*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti*

## Arıçılığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini verməkdədir



Arıçılıq iqtisadi cəhətdən yüksək rentabelli fəaliyyət sahəsi olub əhalinin səmərəli məşğulluğunun təmin edilməsi ilə yanaşı, bitkiçiliyin inkişafında da mühüm rol oynayır.

Son illər muxtar respublikada bu mühüm sahənin inkişafı daim diqqətdə saxlanılmış, sahibkarlar pulsuz dərman preparatları ilə təmin olunmuş, beynəlxalq və yerli əhəmiyyətli elmi-praktik konfranslar keçirilmişdir.

Sahibkarların maliyyə vasitələrinə çıxış imkanları daha da yaxşılaşdırılmış, təkcə 2020-ci ildə arıçılıqla məşğul olan təsərrüfat subyektlərinə 528 min manat məbləğində kredit verilmişdir. 2020-ci ildə 20 arıçılıq təsərrüfatının yaradılması, 2 arıçılıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmış, 3 arıçılıq təsərrüfatının yaradılması işləri davam etdirilmişdir. Ümumilikdə, son beş ildə təsərrüfat subyektlərinə 1 milyon 857 min 200 manat kredit verilmişdir.

Arıçılara saxladıqları hər arı ailəsinə görə subsidiyaların verilməsi, muxtar respublikanın əlverişli təbii-iqlim şəraiti, zəngin yem ehtiyatları bazası arıçılığın inkişaf etdirilməsinə, "Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyinin təsis olunması arıçılıqla məşğul olan istehsalçıların fəaliyyətinin tənzimlənməsinə geniş imkanlar yaratmışdır.

Arıçılığın inkişafı istiqamətində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nda qarşıya qoyulan hədəflərə nail olmaq üçün həyata keçirilən mühüm tədbirlər yerli və ənənəvi arı cinslərinin yetişdirilməsinə, arı ailələrindən yüksək məhsul götürülməsinə, arıçıların dövlət maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə, arıçılıq məhsullarının ixracının stimullaşdırılmasına, muxtar respublika əhalisinin arıçılıq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə imkan yaratmaqdadır.

Muxtar respublikada son dövrlər davamlı olaraq keçirilən "Arıçılıq məhsulları – bal festivalı" arıçılıq məhsullarının istehsalının artmasına və istehsal olunan məhsulların satışına müsbət təsir göstərmişdir.

Arıçılığın inkişafı üzrə həyata keçirilən tədbirlərin nəticəsidir ki, 1 yanvar 2021-ci il tarixə muxtar respublikada 99 min 935 arı ailəsi mövcud olmuşdur ki, bu da 2010-cu ilin sonu ilə müqayisədə 89,7 faiz çoxdur.

*Arı ailələrinin sayı*




2020-ci ilin sonuna ümumi arı ailələrinin 12964-ü Şərur, 14956-sı Babək, 18927-si Ordubad, 18632-si Culfa, 2194-ü Kəngərli, 26879-u Şahbuz, 901-i Sədərək rayonlarının, 4482-si isə Naxçıvan şəhərinin payına düşmüşdür.

Arı ailələrinin artımı məhsul istehsalına müsbət təsir etmiş, 2020-ci ildə muxtar respublikada 1485 ton bal istehsalı qeydə alınmışdır. Bal istehsalı 2010-cu illə müqayisədə 2,1 dəfə artmışdır.

Mühüm qida və müalicə əhəmiyyətli məhsullar mənbəyi olan arıçılığın inkişafı istiqamətində həyata keçirilən tədbirlərin davamlılığı yerli istehsalın şaxələndirilməsinə və sahibkarlığın inkişafına yeni imkanlar yaratmaqdadır.

*Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti*

*Müasirləşən kəndlərimiz*

# Abadlaşan, gözəlləşən yurd yerimiz Şəhriyar

***Muxtar respublikamızın ən böyük bölgələrindən biri olan Şərur rayonunun siması müstəqillik illərində tamamilə dəyişib, Şərur şəhərində və kənd yaşayış məntəqələrində çox sayda sosial obyektlər, istehsal və emal müəssisələri yaradılıb, yollar, körpülər salınıb, əhalinin həyat səviyyəsi xeyli yüksəlib. Ənənə halını alan bu tədbirlər 2020-ci ildə də davam etdirilib. Rayonun başdan-başa yenilənərək müasirləşən yaşayış məntəqələrindən biri də Şəhriyar kəndidir.***



Biz də buradakı hərtərəfli şəraitlə tanış olmaq üçün həmin ünvana üz tuturuq. Elə kəndə gedən yol ilk baxışda hər şeyi "deyir", tələb olunan standartlar səviyyəsində işlənmiş yol kəndin müasir infrastrukturu haqqında ilkin müsbət təəssürat yaradır. Budur, kəndin girəcəyində yol kənarı ilə irəliləyən bir neçə ağsaqqal diqqətimizi cəlb edir. Maşından enib onlarla tanış oluruq. Müasirləşən yurd yeri haqqındakı ilk təsəvvürümüzü həmin ağsaqqallar bir qədər də zənginləşdirir.

Adını sonradan öyrəndiyimiz Əsəd baba ilə hal-əhval tutub gəlişimizin səbəbini bildiririk.O gülümsünərək deyir ki, ay qızım, atalarımız yaxşı deyib ki, "Yüz eşitməkdənsə, bir görmək yaxşıdır". Madam ki, gəlmisən, öz gözlərinlə bugünkü inkişafımızın şahidi olacaqsan. Baxın, vaxt var idi ki, yoliz ucbatından kəndimizə gediş-gəliş





insanları yormuşdu. İlin bu vaxtında, qar, yağış yağdımı, yol lap bərbad hala düşürdü. İndi isə hamar örtüklü yollarla istənilən vaxt rahatca istər rayon mərkəzinə, istərsə də muxtar respublikamızın istənilən bölgəsinə gedə bilirik.

Kəndimizdəki yeni kənd və xidmət mərkəzləri, ümumtəhsil və musiqi məktəbləri isə Şəhriyarı lap qəsəbə timsallı edib. Əsəd babanın yanındakı ağsaqqallar da yeni quruculuq tədbirlərindən xeyli bəhs etdilər, onlara göstərilən belə qayğıya görə minnətdarlıqlarını bildirdilər.

Onlarla söhbətdən sonra sözügedən obyektlərlə tanışlığa tələsirik. Budur, qarşıda 3 mərtəbəli kənd mərkəzi görünür. Burada bizi kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Cümşüd Zahirli qarşılayır. O deyir ki, mərkəzdə dövlət qurumlarının əhaliyə səmərəli xidmət göstərməsi üçün hərtərəfli şərait yaradılıb. Burada Rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, mədəniyyət evi, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, statistika və arxiv otaqları, 44 yerlik zal istifadəmizə verilib.

Kənd əhalisi, əsasən, heyvandarlıqla məşğul olduğuna görə baytarlıq xidmətinin təşkilinə xüsusi diqqət yetirilir, mütəmadi olaraq dezinfeksiya və dezinseksiya tədbirləri görülür. Kənd mərkəzindəki baytarlıq məntəqəsində yaradılan şərait həmin tədbirlərin daha yüksək səviyyədə həyata keçirilməsinə imkan verib.

Uzun müddət rabitə xidməti sarıdan əziyyət çəkən insanlar üçün bu gün Rabitə evində poçt bölməsi də yaradılıb, yeni nəsil texnologiyalara əsaslanan 320 nömrə tutumlu ATS quraşdırılıb, genişzolaqlı internetə çıxış imkanları reallaşdırılıb. Hazırda Şəhriyar kəndində 210 telefon və 96 internet istifadəçisi vardır.

İcra nümayəndəsi deyir ki, bu gün muxtar respublikamızda insan amilinə göstərilən qayğı bütün sahələrdən öndə dayanır. Bu baxımdan əhalinin sağlamlığının qorunmasına ciddi önəm verilməsini də vurğulamaq lazımdır. Şəhriyarda da səhiyyə xidmətinin təşkili diqqət mərkəzində saxlanılıb, quruculuq tədbirləri çərçivəsində həkim ambulatoriyası istifadəyə verilib. 8 otaqdan ibarət olan ambulatoriyada baş həkim, stomatoloji kabinə, peyvənd, manipulyasiya, qeydiyyat otaqları və aptek vardır. Həkim ambulatoriyası müasir tələblərə cavab verən avadanlıqlarla təchiz olunub. Bu isə ambulatoriyaya müraciət edən hər bir şəhriyarlıya ilkin tibbi xidmət göstərməyə imkan verib. Ağxalatlı peşə sahibləri bu imkanlardan səmərəli istifadə etməyə səy göstərirlər. Bunu həmsöhbət olduğum kənd adamları da bildirdilər.

Kənd mərkəzindən ayrılıb müəllim və şagirdlərin istifadəsinə verilmiş məktəb binasına üz tuturam. Binaya daxil olarkən ümummilli liderimizin ***"Təhsil millətin gələcəyidir"*** deyimini xatırlayıram. Doğrudan da, bu gün ən ucqar dağ və sərhəd kəndlərimizdə hərtərəfli şərait yaradılaraq şagirdlərin istifadəsinə verilən məktəbləri gördükcə insanda bir fəxarət hissi yaranır. Bu qayğının nəticəsidir ki, diyarımızın təhsil ocaqlarında vətənpərvər, dövlətimizə, dövlətçiliyimizə sadiq olan intellektli gənclər yetişir. Şəhriyar kənd tam orta məktəbi də bu sıradadır. Öyrənirik ki, məktəb ikimərtəbəli olmaqla, 224 şagird yerlikdir. Burada 16 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter, müəllimlər və psixoloq otaqları, STEAM kabinəsi, kitabxana, qarderob və idman zalı yerləşir. STEAM kabinəsi 1 elektron lövhə, 2 kompüter, 3D printer olmaqla, mikrobit, arduino setləri və digər öyrədici STEAM qurğuları ilə təchiz edilib. Quraşdırılan 4 elektron lövhə və 22 kompüter tədrisin təşkilində yeni texnologiyalardan səmərəli istifadəyə, distant təhsilin tətbiqinə, eləcə də muzeylərlə interaktiv əlaqələrin qurulmasına imkan verir.

Məktəbin kitabxanası da zənginləşdirilib. Burada Azərbaycan klassikləri, müasir şair və yazıçılarımızla yanaşı, dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri, elektron kitab bazası və oxunması zəruri olan kitablardan ibarət guşə şagirdlərin buraya cəlbində, onların mütaliə vərdişlərinin formalaşdırılmasında mühüm rol oynayır.



Kəndə daha bir qayğı isə uşaq musiqi məktəbi üçün yeni binanın istifadəyə verilməsidir. Bu təhsil ocağı ilə bizi musiqi məktəbinin direktoru Emin Əliyev tanış edir. O deyir ki, məktəbdə fortepiano, tar, kamança, nağara, qarmon ixtisasları üzrə 109 şagird təhsil alır. Onlardan 3-ü sağlamlıq imkanları məhdud uşaqdır. Şagirdlərin təhsili ilə 29 müəllim məşğul olur. Məktəbdə xor kollektivi, xalq çalğı alətləri və nağaraçalanlar ansamblları fəaliyyət göstərir.

İkimərtəbəli məktəb binasında direktor, müəllimlər otaqları, musiqi ədəbiyyatı, solfecio, nağara, qarmon, kamança, tar, fortepiano sinfləri olmaqla, ümumilikdə, 18 otaq, 40 yerlik konsert zalı, kitabxana, elektrik otağı və qarderob vardır. Yaradılan bütün bu şərait uşaqlar arasında musiqiyə olan marağı daha da artırıb.



Daha bir təhsil ocağı ilə tanışlıqdan sonra kəndin uzunömürlü, qocaman sakinləri ilə də görüşüb onların da fikirlərini öyrənmək yerinə düşər deyib, kənd inzibati ərazi dairəsi üzrə nümayəndə ilə birlikdə üz tuturuq Asya nənənin ünvanına. Öyrənirik ki, Asya nənə pambıq, tütün yığımından tutmuş bir sıra işlərdə çalışıb. 87 yaşlı nənə bizə kəndlərinin şəraitsiz vaxtlarından danışır:

– Qızım, o vaxtlar kəndimizdə, nəinki yaraşıqlı binalar, heç əhaliyə vacib olan təşkilatlarda belə şərait yox idi. İnsanlar çətinliklərini zorla həll edirdilər. Məktəb binası yararsız halda idi. Uşaqlar şəraitsizlik ucbatından bəzən dərsə getməkdən yayınırdılar. Məktəblilərin aldıqları təhsilin keyfiyyəti isə aşağı olurdu.Yeni məktəb binası həmin çətinlikləri aradan qaldırıb. Məktəbimiz isə hələ görünüşü ilə insanda lap uşaq olmaq, parta arxasına keçib təhsil almaq həvəsi yaradır. Bu gün kəndimizdə yaradılan xidmət mərkəzində isə istədiyimiz məhsulu tapa bilirik.

Dövlətimizin bizlərə göstərdiyi qayğıya gəldikdə isə, a qızım, bax mən illərdir ki, tənha yaşayıram. Sağ olsun, dövlətimizi, mənə baxmaq, qulluq etmək üçün köməkçi də ayırıb. Vaxtaşırı həkimlər, tibb bacıları da gəlib səhhətimlə maraqlanırlar. Mən fürsətdən istifadə edib bu günün gənclərinə demək istəyirəm ki, onlar bu şəraitdən səmərəli istifadə etsinlər. Elm hər şeyin başında gəlir. Yaxşı təhsil alsınlar, vətənpərvər böyüyüb Azərbaycanımıza layiqli vətəndaşlar olsunlar.

Asya nənə ilə xoş söhbətdən sonra onunla sağollaşıb ayrılırıq. Öyrənirik ki, Azərbaycan Vətən Müharibəsinin iştirakçısı, qazimiz Ruslan Nəcəfov da şəhriyarlıdır. Hərbi Hospitalda müalicəsi bitdikdən sonra xidmətə davam etdiyi üçün onunla görüşə bilmədik. Amma anası Ceyhunə xanım bizi gülərüzlə qarşılayır. Deyir ki, oğlu ilə fəxr edir. Çünki Vətən darda olanda Ruslan onların başını uca edib. Vətən hər birimizindir və onu qorumaq hər bir vətəndaşın borcudur. Oğlu da bu borcu layiqincə yerinə yetirib.

***Artıq kənddən ayrılmaq vaxtıdır. Şəhriyarda görüşdüyümüz insanların söhbətləri bizdə yüksək təəssürat yaradıb. Kənddən elə bu təəssüratla ayrılırıq. Qəlbimizdən keçən müasirləşən növbəti ünvanlarla sizi tanış etmək ümidi ilə.***

**✍ Telli MƏMMƏDOVA**

# Hünərli, cəsarətli sahibkar

Babək rayonunun Qahab kəndindən olan Hünər Qasımov zamanla ailə təsərrüfatını inkişaf etdirərək sahibkara çevrilib. Kənd təsərrüfatının, demək olar ki, bütün sahələri ilə – əkinçilik, arıçılıq, bağçılıq, taxılçılıq, o cümlədən heyvandarlıqla məşğul olan müsahibim deyir ki, Naxçıvanda ailə təsərrüfatlarının inkişafına davamlı dövlət dəstəyi göstərilir. Bu dəstək hesabına mən də öz fəaliyyətimi genişləndirmişəm. 2013-cü ildə Sahibkarlığın İnkişafı Fondunun xətti ilə güzəştli şərtlərlə kredit götürərək Qahab kəndində "Böyük dağ" süd məhsullarının istehsalı müəssisəsini açdım. Onda özümün 30 baş iribuynuzlu mal-qaram var idi. 2019-cu ildə 7 min manat kredit götürüb arı ailəsi almışam, hazırda 30 arı ailəsinə qulluq edirəm. Bu sahəyə də dövlət dəstəyi göstərilir, hər arı ailəsinə görə subsidiya verilir. Diyarımızda ailə təsərrüfatçıları üçün yaradılan şəraitdən bəhrələnərək ötən il fermer təsərrüfatımızı yaratmışıq. Belə ki, yenidən kredit götürərək 50 metr uzunluğunda, 14 metr enində böyük fermer təsərrüfatı tikmişəm.

"Hünər" fermer təsərrüfatında hazırda 61 iribuynuzlu mal-qara, 250 baş xırdabuynuzlu heyvan saxlayırıq. Ailə üzvlərimlə birgə bir neçə ildir ki, ağartı məhsullarının istehsalı ilə məşğuluq. İstehsal etdiyimiz məhsulları Naxçıvanın satış obyektlərinə təqdim edirik. Bu məhsulların keyfiyyətinə söz ola bilməz. Muxtar respublikanın zəngin təbiəti, təmiz havası və suyu hesabına belə keyfiyyətli məhsullar ərsəyə gətirə bilirik.

Müsahibim heyvanların yem tədarükündən danışaraq bildirir ki, qaba yemlər heyvanların qışlama dövrü rasionlarının əsas tərkib hissəsini təşkil edir. Heyvandarlıq təsərrüfatının tələbatının ödənilməsi üçün ötən il 2 hektar sahədə yonca əkmişəm. Digər qüvvəli yemlər də tədarük etmişəm. Hazırda fermada sağmal heyvanlar gündəlik sağılır, qatıq və süzmə, qaymaq, ayrandan şor hazırlanır. Yaz fəsli gələndə, aprel ayının əvvəllərindən heyvanları aparacağıq Culfa rayonu ərazisindəki Kola dərəsinin, Nəhəcir dağının ətəklərinə. Təsərrüfatçı deyir ki, vaxtilə heyvandarlıqla məşğul olanlar çətinliklərlə qarşılaşırdı. İndi obalara gedən yolların rahatlığı, o cümlədən yüksək dağlıq ərazilərdə yerləşən hərbi hissələrdə xidmətin uğurla yerinə yetirilməsi mənim kimi digər heyvandarların da yaylaqlarda rahat və təhlükəsiz yaşamasına imkan verir.



Hünər Qasımov onu da bildirir ki, heyvandarlıq təsərrüfatında süni mayalanma, eləcə də heyvanların yemlənməsi, bəslənməsi və saxlanması zootexniki qaydalara uyğun həyata keçirilir. Süni mayalanma heyvanların cins tərkibinin yaxşılaşdırılmasında mühüm rol oynayır və bu yolla doğulan hər buzova görə dövlətimiz tərəfindən 100 manat məbləğində subsidiya verilir. Həmçinin fermamızdakı heyvanlar mütəmadi olaraq baytar müayinəsindən keçirilir, yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə profilaktik tədbirlər görülür.

Müsahibim heyvandarlıqla yanaşı, həm də uzun illərdir, əkinçiliklə məşğuldur. Əkinçilik təsərrüfatının ən qədim və aparıcı sahəsi sayılan taxılçılıqla məşğul olan təsərrüfatçı 21 hektar sahədə payızlıq taxıl səpini həyata keçirib. O deyir ki, əlverişli təbii-coğrafi şərait, taxıl sahələrinə vaxtında göstərilən lazımi qulluq, sahələrin suvarılması, ziyanvericilərə qarşı müvafiq işlərin görülməsi imkan verir ki, bu sahədən bol məhsul əldə edək, əhalinin ehtiyac və tələbatının ödənilməsinə töhfəmizi verək.

Sahibkar bələdiyyədən də 3 hektar yararsız torpaq sahəsi götürüb yararlı hala salaraq 1 hektar sahədə yonca, 2 hektarda taxıl, yarım hektarda isə müxtəlif meyvə ağacları əkib. "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 3 texnoloji avadanlıq alıb.

Müsahibim hər il muxtar respublikamızda keçirilən müxtəlif festival və yarmarkalarda iştirak edir. Bal, qovurma, qatıq, qatıqaşı, kərə, şor və digər keyfiyyəti ilə seçilən məhsulları rahatlıqla alıcılara təqdim edə bilir. Hünər Qasımov muxtar respublikamızda fəaliyyətinə yaradılan şəraitə görə minnətdarlığını bildirdi.

*Bu gün Naxçıvanda bütün sahələrə, o cümlədən əhalinin yaşayışını təmin edən kənd təsərrüfatı sahəsinə göstərilən dövlət qayğısı Hünər Qasımov kimi zəhmətkeş adamları öz yurduna daha sıx tellərlə bağlayır. Onlar dövlətin diqqət və qayğısı hesabına çəkdikləri zəhmətlə doğma Naxçıvanımızın inkişafına layiqli töhfələrini verirlər. Belə insanların əməyi isə dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilir.*

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

*Əfsanəyə dönən ömürlər*

# Ay-ulduza dönən arzularım...

*(Bir şəhidin monoloqu)*



***Mən, könüllərdə şərəf, ləyaqət taxtı quran, torpaq, el-oba üçün sinəsini sipər edən, son damla qanınadək vuruşan 2800-dən çox Vətən övladından biri – Firuz Qureşli. Damarında azərbaycanlı qanı axan hər kəsin qürur mənbəyi, inam yeri, ümid təşnəsiyəm, dillərdən düşməyən, Ali Baş Komandanımın mübarək "Qarabağ Azərbaycandır!" kəlməsindəyəm. 30 illik həsrətin, hicranın vüsal anıyam, yurd-yuvalarından didərgin düşən ana-bacılarımın, ata-qardaşlarımın donuq baxışına, solğun çöhrəsinə yeni təravət, qaysaq bağlamış yarasına məlhəməm. Qürur, fəxarət hissi ilə şəhidlik məqamından seyr edirəm dörd bir yanı qələbə ətirli çələnglərlə bəzənən doğma yurdumu. Yüzlərlə silahdaşım kimi mənim də deməyə, danışmağa sözüm çoxdur. Düşündükcə çözələnir xatirələr, ömür yolum, yaşadıqlarım, olanlar, ötənlər gəlib-keçir xəyalımdan bir-bir...***

1993-cü ilin dekabrın 3-də, şaxtalı, sazaqlı bir qış günü Şahbuz rayonunun Külüs kəndində, Həsənovlar ailəsində göz açdım dünyaya. Bütün həmyaşıdlarım kimi, mənim də uşaqlığım I Qarabağ müharibəsinin, blokadanın yaratdığı çətin, acınacaqlı dövrlərə təsadüf etdi. Ata-anam min bir əziyyətə qatlaşıb, əlləşib-vuruşaraq halal zəhmətləri ilə böyütdülər məni, bacım və qardaşımı. Uşaqlıq çağlarımın unudulmaz anları çox olsa da, ən yaddaqalan hadisələrdən biri valideynlərimizlə bazar-dükana getməyimiz idi. Həmin gün, sözün əsl mənasında, mən və bacı-qardaşım üçün çal-çağırlı keçərdi. Hərəmiz öz balaca dünyamıza uyğun o dövrün mühitinə, imkanlarına xas oyuncaqlardan seçərdik. Gülçin gəlinciklər, Yalçın "musiqi alətləri" istəyəndə, mən "döyüş maşınları"na, "əsgərlər"ə üstünlük verərdim...

Deyirlər, uşaqlıq arzuları gözəl olsa da, çox vaxt gerçəkdən uzaq xam xəyallar kimi qalır. Ancaq bizdə belə olmadı. Zaman dəyişsə də, uşaqlıq arzularımız, istəklərimiz dəyişmədi. Onları reallığa çevirməyi də bacardıq. Yalçın musiqi sahəsini seçdi, mən isə Vətənin keşiyində dayanmaq kimi müqəddəs məsuliyyəti dərindən dərk edərək hərb sənətinə könül verdim. Bu çətin, keşməkeşli və şərəfli yolu seçən hər bir naxçıvanlı kimi mən də əvvəl Heydər Əliyev adına Hərbi Liseydə oxudum. Həmin illərdən xatirimdə qalan ən gözəl anlardan biri atamın hər valideyn iclasından sonra mənə əxz elədiyi nəsihət dolu sözlər idi. "Oğlum, səninlə qürur duyuram, mənim başımı daim belə uca et" – cümləsi ilə bitən ata-bala söhbətindən hər dəfə daha da ruhlanardım. Əla qiymətlərlə bitirdim liseyi. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olanda isə atama söz verdim ki, gün gələcək onu general atası edəcəyəm. Elə ürəyimdə ümid, inam çırağı kimi gecə-gündüz şölələnən bu arzularla 2017-ci ildə üz tutdum Beyləqan korpusunun "N" hərbi hissəsinə. Minaatan bölüyündə leytenant, taqım komandiri kimi fəaliyyətə başladım. İşlərim qaydasında getdi, təlimlərdə fəallığı ilə seçilən, nizam-intizamlı taqım formalaşdırdım. 2019-cu ildə qüsursuz xidmətimə görə vaxtından əvvəl baş leytenant rütbəsi alaraq bölük komandiri oldum...

2020-ci il 27 sentyabr tarixi... 30 ilə yaxındır, həsrətlə gözlədiyimiz həmin gün... Hər zamankı kimi ön xətdə əsgərlərimlə birgə mətinliklə dayanmışıq Vətənimizin keşiyində. Artıq bir neçə vaxtdır, düşmənin müharibə hazırlığını müşahidə edirdik. Yəni tezliklə bizə qarşı növbəti təxribatın olacağı gözlənilən idi. Lakin onlar bir həqiqəti dərk etmək istəmirdilər ki, qarşılarında daha 90-cı illərin əliyalın, köməksiz insanları deyil, dönməz, mətin, yurdsevər əsgərlər, müzəffər Ordu dayanıb. Artıq xalqımız kimi, Ali Baş Komandanımızın da səbir kasası çoxdan dolub daşıb. Və beləliklə, səbirsizliklə gözlənilən əks-hücum əmri gəldi. Yetər, bitdi bu nankor qonşulara verdiyimiz möhlət, – deyərək əsgərlərimlə döyüşə atıldıq...

Ard-arda düşmənə qan uddurduğumuz döyüşlərdən birində düşmən tərəfindən atılan top mərmisi yanıma düşür, partlayışdan huşumu itirirəm. Gözümü açanda bədənimdə kəskin ağrılar baş qaldırır, qolumdan və qarın nahiyəmdən ağır yara aldığımı öyrənirəm. Məni döyüş meydanından çıxaran taqım komandiri Üzeyir Süleymanova deyirəm: "Çalışacağam, tezliklə sağalıb yanınıza qayıdam, dayanmaq olmaz, ancaq irəli getməliyik. Əgər şəhid olsam, qardaşıma deyərsiniz, ailəmdən, övladım Duyğudan muğayat olsun". Bəli, bu sözlərimdən sonra Üzeyirin gözləri əbəs yerə dolmamışdı. Vəziyyətimin heç də yaxşı olmadığını o da gözəl dərk edirdi. Belə də oldu. Üç gündən sonra Bakıdakı xəstəxanada şəhadətə qovuşdum. Silahdaşlarımı yarı yolda qoymağa məcbur qalsam da, bir ay sonra onların zəfər müjdəsi ilə pərişan ruhuma hüzur gəldi. Ali Baş Komandanımın şəhadətimdən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif etməsi isə məni hədsiz dərəcədə qürurlandırdı...

Əziz atam, görürəm cismani ayrılığımız, övlad həsrəti səni xeyli üzüb, mən gedəndən sonra əlinə əsa da götürmüsən. Eşit oğlunun sözünü, qəti üzülmə, qamətini şax tut. Özünü qınama. Düşünmə ki, övladım ali hərbi məktəbi bitirəndə verdiyi "Ata, gün gələcək səni general atası edəcəyəm" sözünü tutmadı. Qürurlan ki, sənin oğlun çiynindəki o üç ulduzun məsuliyyətini sonadək qəlbində, əməlində şərəflə, ləyaqətlə daşıdı. Hər kəsin qisməti bir başqa olur, ata. Mənə o ayı çiynimdə daşımaq nəsib deyilmiş. Ancaq gileyli deyiləm. Əksinə, fəxr edirəm ki, indi yüzlərlə dostumla, sirdaşımla birgə əbədiyyət ayı kimi gecə-gündüz milyonlarla insanın könlündə parlayıram. Mənim ayım Qarabağımızda dalğalanan üçrəngli bayrağımızda, anaların, bacıların sevinc göz yaşlarında, ataların qürur hissindədir. Mənim ayım evimizdəki yadigarım, nişanəm – balaca qızımdır. İllər ötəcək, Duyğum böyüyüb yaşa dolacaq, məktəbə gedəcək. Müəllimlərinin, sinif yoldaşlarının "Sənin atan doğma torpaqlarımızın azadlığı uğrunda canından keçib, o, hamımızın qəhrəmanıdır" sözləri ilə fəxarət hissi keçirəcək. Bax o zaman mənim ayım daha parlaq şəkildə yenidən doğacaq. Doğacaq ki, övladımın yolu aydın, gələcəyi işıqlı olsun.

Əziz anam, sən də giley-güzarı bitir, daha ağlama. Axı sənə verdiyim sözü tutmuşam. Yəqin yadına düşdü xidmətdə olanda dediyim sözlər: – Ana, postda olanda hey Qarabağımızı müşahidə edirəm, əsl cənnətdir, adamın lap qaçıb uşaq kimi sarılmağı gəlir daşına, kəsəyinə. Gün gələcək səni o yerlərə aparacağam, öz gözlərinlə görəcəksən doğma elimizi, obamızı. Yadımdadır, hələ sən də dedin ki, Allah arzuna çatdırsın, ay oğul, inşallah qismət olar birgə gedərik, qurban da kəsərik. Arzuma çatdım, ana, qurbanın qəbul oldu. İnşallah yaxın vaxtlarda aparıb kəsərsiniz. Düzdür, mən sizinlə birgə cismani gələ bilməyəcəm. Ancaq söz verirəm ki, azad olunmuş o müqəddəs torpaqlara ayağınız dəyən gün mütləq ruhən yanınızda olacağam...

✍ **Nail ƏSGƏROV**



## "Qəhrəmanlar unudulmur!" devizi altında portret sərgi təşkil edilib

*Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda birliyin təşkilatçılığı ilə Naxçıvan şəhidlərinə həsr olunmuş "Qəhrəmanlar unudulmur!" devizi altında portret sərgi keçirilib.*

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva açaraq Vətən müharibəsində böyük hünər və rəşadət göstərən Vətən oğullarının əziz xatirəsini yad edib. Qeyd olunub ki, sentyabr ayının 27-dən başlanan Vətən müharibəsi 44 gün ərzində xalqımızın şanlı qələbəsi ilə başa çatıb. İgid oğullarımız böyük şücaət göstərərək Vətən yolunda öz canlarını qurban veriblər. Vətən müharibəsində Naxçıvanın igid oğulları da böyük qəhrəmanlıqla döyüşüb, şəhidlik adlı uca məqama yüksələrək əbədiyaşarlıq qazanıblar. Öz canlarını Vətənə qurban verən şəhidlərimiz Naxçıvanda böyük ehtiramla qarşılanıb. Muxtar respublikamızda şəhidlərimizin xatirəsi yaşadılır, həmişə əziz tutulur. Biz bütün şəhid analarının qarşısında baş əyirik. Bugünkü tədbir də şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə təşkil edilib. Rəssamlarımız tərəfindən naxçıvanlı şəhidlərimizin portreti çəkilib.



Ülviyyə Həmzəyeva muxtar respublikamızda şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

Sonra şəhid Yaqub Nəcəfovun atası Məhəmməd Nəcəfov çıxış edərək bildirib ki, Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn igidlərimiz hər zaman xalqımızın qəlbində yaşayacaq, hörmətlə anılacaqdır. Şəhid atası diyarımızda şəhid ailələrinə göstərilən qayğıya və bu sərginin keçirilməsinə görə minnətdarlıq edib.

Sonra tədbir iştirakçıları tərəfindən şəhidlərimizə həsr olunmuş videoçarx izlənilib.

Sonda muxtar respublikamızın tanınmış rəssamlarının işlədikləri şəhid portretləri onların ailə üzvlərinə təqdim edilib.

✍ **Məcid ƏKBƏROV**

## "Büdcəmizi anlayaq" layihəsi çərçivəsində növbəti təlim keçirilib



Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin təşkilatçılığı ilə Hüseyn Cavid adına Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbdə "Büdcəmizi anlayaq" layihəsi çərçivəsində təlim keçirilib. Layihənin əsas məqsədi ümumtəhsil müəssisələrində təhsil alan şagirdlərdə maliyyə savadlılığı, qənaət, yığım və digər bacarıqların erkən yaşlardan inkişaf etdirilməsindən ibarətdir. 40-dan çox məktəblinin iştirakı ilə keçirilən təlim şagirdlərə maliyyə savadlılığı üzrə biliklərin əldə edilməsi və bu biliklərin təqdim edilməsi, onların yaradıcı düşünmə bacarıqlarının artırılması və maliyyə savadlılığının təşviq edilməsi imkanı yaradır.

İlk mərhələdə slaydlar vasitəsilə "Büdcəmizi anlayaq" mövzusunda Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Büdcə şöbəsinin sektor müdiri Səkinə Qəhrəmanovanın çıxışı dinlənilib. Təlimin növbəti mərhələsində Maliyyə Tədris Mərkəzinin baş mütəxəssisi Zəhra İsmayılova tərəfindən interaktiv oyunlar vasitəsilə şərti ailənin gəlir və xərclərinin müqayisəli təhlili aparılıb. Sonra məktəblilərin təqdimatı dinlənilib və səmərəli büdcə planlaşdırılması qaydaları ətrafında müzakirələr aparılıb. Bu mərhələdə 3 komanda iştirak edib. İnteraktiv mərhələdən sonra fəal iştirak edən komandalara Maliyyə Tədris Mərkəzinin sertifikatları təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

*Sabahın tədqiqatçıları*

## Çox sevdiyim general

Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın zəngin hərb tarixi vardır. Ona görə də mən həmişə boş vaxtlarımda Naxçıvan şəhərində olan muzeylərimizə gedir, hərb tariximizlə bağlı məlumatlar əldə etməyə çalışıram. Çox maraqlandığım məsələlərdən biri doğma Naxçıvanımızın 1918-1920-ci illərdə erməni daşnaklarından necə müdafiə edilməsidir.

Qəzetlərdə də bu haqda olan məqalələri həvəslə oxuyuram. Televiziya verlişlərinə baxıram. Çünki bizim babalarımız qəhrəmanlıq və cəsurluqla doğma Naxçıvanı yağılardan – quldur erməni daşnaklarından qoruyublar.

Həmin qəhrəmanlardan biri də general-mayor III Kalbalı xan Naxçıvanskidir. Öyrənmişəm ki, general-mayor III Kalbalı xan Naxçıvanski-Kəngərli 20 oktyabr 1891-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. Onun atası məşhur hərbçi Cəfərqulu xan Naxçıvanski oğlanlarının hərbi təhsil almasına çox ciddi fikir verirdi. Çünki onun ulu babaları hələ Səfəvi dövləti zamanında Şərqin ən məşhur sərkərdələri kimi tanınmışlar. Buna görə də oğlu Kalbalı xanı hərbi təhsil almaq üçün Tiflisə gətirir. Kalbalı xan zadəgan balaları



üçün təsis edilmiş hərbi məktəbə – kadet korpusuna qəbul olunur. Hərbi məktəbi uğurla bitirən Kalbalı xan 19 sentyabr 1909-cu ildə Nikolayevsk Qafqaz Hərbi Məktəbinin eskadron qoşunlarına yunker kimi qeydə alınır.

6 avqust 1911-ci ildə tam kurs bitirir və gənc zabit-kornet kimi Varşavada (Polşada) hərbi xidmətə başlayır. Varşavaya gələn kimi 5-ci eskadronun kiçik zabiti kimi saray qvardiyasında xidmətə başlayır. O, Birinci Dünya müharibəsində iştirak edir. 30 iyul 1915-ci ildə poruçik, 5 avqust 1916-cı ildə ştabs-rotmistr hərbi rütbələrini alır. Kalbalı xanın müharibədə göstərdiyi qəhrəmanlıq çar Rusiyası tərəfindən yüksək qiymətləndirilir. O, çoxlu hərbi ordenlərə layiq görülüb. 3-cü dərəcəli "Müqəddəs Stanislav" ordeni (1915, qılınclarla), üzərində "İgidliyə görə" yazısı olan 4-cü dərəcəli "Müqəddəs Anna" (1914), 1915-ci ildə həmin ordenin 3-cü dərəcəsini (qılınclarla və barutla) və 2-ci dərəcəsini (qılınclarla) alan gənc sərkərdə həm də Rusiyanın ən ali hərbi mükafatlarından biri – qızıl Georgi silahı ilə (2 may 1915-ci ildə) təltif edilib.

Birinci Dünya müharibəsində yaralanmasına baxmayaraq, 1918-ci ilin əvvəlində Naxçıvana gəlmiş və müdafiə işlərinə rəhbərlik etmişdir. Çünki o, hərb sənətinin mahir bilicisi və əla süvari döyüşçü idi.

Onun haqqında yazılan məqalələrdən öyrənirik ki, 1918-1920-ci illərdə Kalbalı xan öz taboru ilə qəddar düşmənlərlə – erməni quldurları ilə qəhrəmanlıqla vuruşub. Həmin çətin illərdə Naxçıvan qoşunlarının hərbi naziri vəzifəsini də daşıyıb. Hətta 1918-ci ilin dekabrından – 1919-cu ilin martına kimi fəaliyyət göstərən Naxçıvan Araz-Türk Cümhuriyyətinin cəsur hərbçilərindən biri olub.

Onun apardığı döyüşlər biz məktəblilərdə qürur hissi doğurur. Bu cəsur sərkərdənin doğulduğu evdə yaradılan Naxçıvanskilər Muzeyi zəngin eksponatları ilə diqqəti çəkir. Dəfələrlə bu muzeydə də olmuşam. Burada öyrənmişəm ki, 1920-ci il iyulun 28-də Naxçıvanda sovet hökuməti qurulduqdan sonra Kalbalı xan İrana mühacirət etmiş və 1934-cü ildə şah xəfiyyəsi tərəfindən öldürülmüşdür.

Bunu da demək istəyirəm ki, biz məktəblilərə hərtərəfli təhsil almaq üçün böyük qayğı göstərilir. Belə qayğının ən bariz nümunələrindən biri də məktəbli tədqiqatçıların hazırlanması məsələsidir. Mən də tədqiqatçılığa maraq göstərirəm. Buna görə hər həftə AMEA Naxçıvan Bölməsinə gedirəm. Hazırda bölmədə qəhrəman sərkərdəmiz general-mayor III Kalbalı xan Naxçıvanskinin döyüş fəaliyyətini göstərən xəritə maketini işləyirəm.

**Nadir İSMAYILOV**
***Naxçıvan şəhər 4 №-li tam orta məktəbin X sinif şagirdi***

# Naxçıvan milli dəyərlərimizin qoruyucusu və yaşadıcısıdır







***Türk dünyasının qapısı Naxçıvan tarixin bütün dövrlərində seçilən, diqqətçəkən Azərbaycan şəhərlərindən biri olub. Qədim tarixə, zəngin mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik diyarımız dövlət müstəqilliyimiz uğrunda gedən mübarizələrdə həmişə ön sırada dayanıb, dövlətçilik tariximizə mühüm töhfələr verib. Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biri sayılan Naxçıvan həm də milli-mənəvi dəyərlərimizin qoruyucusu və yaşadıcısıdır. Bu şəhərin tarix-mədəniyyət abidələri, xalq yaradıcılığı sahələri – xalça sənəti, bədii tikmələr, milli geyimlər, rəssamlıq, sənətkarlıq, memarlıq və ədəbiyyatı, musiqi ənənələri – milli musiqi alətləri, milli rəqslər, teatr sənəti və digər mədəniyyət nümunələri milli dəyərlərimizin zənginliyindən soraq verir.***

Milli dəyərlər milli mövcudluğumuzun, bir xalq olaraq yaşam tərzimizin, milli kimliyimizin, milli mentalitetimizin göstəricisidir. 70 il sovet imperiyası milli ruhu, milli düşüncəni qəbul etməsə də, əsrlərin, qərinələrin sorağı olan milli dəyərlərimizi məhv də edə bilmədi. Müstəqilliyimizin mövcud olmadığı dövrlərdə belə, milli dəyərlərimiz unudulmadı. Bu dəyərlərimizin təəssübkeşi ümummilli liderimiz Heydər Əliyev onların bərpası və yaşaması istiqamətində taleyüklü tədbirlər gördü, xalqımızın milli dəyərlərini özünə qaytardı. Ulu öndərimiz sovet dövründə olduğu kimi, Azərbaycanın müstəqilliyi illərində də milli dəyərlərimizə sahib çıxdı. Görkəmli dövlət xadiminin bu dəyərlərin elmi baxımdan öyrənilməsi, təbliğ edilməsi istiqamətində apardığı məqsədyönlü siyasət bu gün ölkəmizdə uğurla davam etdirilir.

Xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan milli dəyərlərimiz qədim diyarımız Naxçıvanda da yüksək diqqət və ehtiramla yaşadılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Hər bir xalqın milli dəyərləri onun özünütəsdiq imkanı və milli pasportudur. Dövlətlər rəsmi atributları – bayrağı, himni, gerbi və sərhədləri ilə tanındığı kimi, dövlətlərin ərazisindəki millət və ya xalqlar da özlərinin milli dəyərləri – folkloru, incəsənəti, mədəniyyəti, adət-ənənələri, milli geyim və mətbəxləri ilə tanınırlar. Azərbaycan xalqının milli dəyərləri uzun əsrlərboyu xalqımızın yaşadığı tarixi ərazidə formalaşmış çox mühüm tarixi nailiyyət və milli sərvətdir..."*** Diyarımızda məhz Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə xalqımızın milli dəyərlərinin, adət-ənənələrinin təbliği, tarixi-memarlıq abidələrinin bərpası ilə bağlı genişmiqyaslı tədbirlər həyata keçirilib və keçirilməkdədir. Xalqımızın milli sərvəti olan abidələrimiz qeydə alınaraq pasportlaşdırılıb, onların bir çoxuna ikinci həyat verilib. Ötən il də Naxçıvan şəhərində xalqımızın tarixini, mədəniyyətini, adət-ənənələrini özündə yaşadan abidələr – XII əsr memarlıq abidəsi olan Yusif Küseyir oğlu türbəsi və XIV əsrə aid Buzxana abidəsinin, Kəngərli rayonunun Şahtaxtı kəndində XIX əsrə aid hamamın bərpa edilməsi Qurucu Rəhbərin milli dəyərlərə sədaqətinin göstəricisidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamına əsasən ötən dövr ərzində xalq yaradıcılığının yaşadılması, təbliği istiqamətində görülən işlər sistemli xarakter alıb. Folklorun aparıcı qolunu təşkil edən ozan-aşıq yaradıcılığının geniş tətbiqi, unudulmuş mahnı və rəqslərin bərpası, qədim xalq çalğı alətlərində ifaların nümayiş etdirilməsi, diyarımızın ayrı-ayrı bölgələrindən toplanan yallı və saz havalarının nota salınması, xalqımızın tarixini, etnoqrafiya və bədii xüsusiyyətlərini özündə əks etdirən milli mətbəx nümunələrimizin təbliği həyata keçirilən tədbirlər sırasındadır. Son dövrlərdə məktəbdənkənar təhsil müəssisələrində yaradılan Xalçaçılıq, Metal üzərində bədii döymə, Ağac üzərində oyma, Ebru sənəti, Qum sənəti, Dulusçuluq və digər innovativ dərnəklər uşaq və gənclərin maraq və bacarıqlarının, intellektual səviyyələrinin və yaradıcılıq qabiliyyətlərinin inkişafında mühüm əhəmiyyət daşıyır, eyni zamanda bu dərnəklərdə onlara milli dəyərlərimizə hörmət aşılanır. Həmçinin yeniyetmə və gənclərin asudə vaxtının səmərəli təşkili məqsədilə onların diyarımızdakı muzeylərə mütəmadi olaraq ekskursiyalarının təşkil edilməsi milli dəyərlərimizin öyrənilməsində, yaşadılmasında vacib rol oynayır.

Milli dəyərlərimizin qorunmasının bir göstəricisi də Naxçıvan şəhərində fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin Milli Dəyərlər Muzeyidir. Muzey 2019-cu il sentyabr ayının 23-də fəaliyyətə başlayıb. Milli dəyərlərimizin qoruyucusu və təbliğatçısı rolunda çıxış edən muzey üç ekspozisiya zalından ibarət olmaqla, 265 eksponatı özündə saxlayır. Muzeyin girişində diqqəti cəlb edən ulu öndərimiz Heydər Əliyevin: ***"Biz öz milli dəyərlərimizlə fəxr etməliyik. Bizim milli dəyərlərimiz əsrlərboyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz..."*** kəlamı hər birimiz üçün həmişə dəyərli və aktualdır. Ekspozisiyanın birinci guşəsində suverenliyimizin rəmzi olan dövlət bayrağımız, müstəqilliyimizin və birliyimizin rəmzləri sayılan dövlət gerbi və dövlət himnimizin mətni özünə yer alıb. Muzeydə "Naxçıvan tarixi" çoxcildliyi, "Naxçıvan Abidələri Ensiklopediyası", "Naxçıvan xalçaçılığı: ənənə və müasirlik", "Əlincəqala", "Naxçıvan Duzdağı" və digər kitablar muxtar respublikanın tarixi, mədəniyyəti, memarlıq abidələri, adət-ənənələri haqqında xeyli informasiya verir. Xalqımızın mədəniyyət tarixini öyrənmək üçün qiymətli mənbələrdən olan milli geyimlər muzeyin yaraşığıdır, – desək yanılmarıq. Rəngarəng, növbənöv geyimlər ekspozisiyaya xüsusi rəng qatmaqla muzeyə gələn qonaqların da diqqətini cəlb edir. Naxçıvanda toxuculuğun, boyaqçılığın və ipəkçiliyin inkişafı tarixən milli geyim mədəniyyətinin də formalaşmasına şərait yaradıb. Arxalıq, küləcə, köynək, tuman, çəpkən Naxçıvanın qədim geyimləri olub. Naxçıvanlıların ənənəvi kişi geyimlərinin hazırlanmasında mahuddan və ev şəraitində toxunan şal parçadan, qadın geyimlərində isə məxmər və ipəkdən istifadə olunub. Kişilər, adətən, üst geyimlərindən sayılan şalvar, çuxa, arxalıq geyinər, başlarına papaq, əmmamə qoyar, bellərinə bağlamaq üçün qurşaq, kəmər, toqqa, qayışdan istifadə edərdilər. Qadın üst geyimləri içərisində çəpkənlər, küləcə arxalıq, baş geyimlərində yaylıq, kəlağayı, araqçın seçilirdi. Milli geyimlər guşəsində nümayiş olunan müxtəlif qadın və kişi geyimləri, həmçinin döyüşçü libası XIX-XX əsrlərdən soraq verir. Birinci otağın milli mətbəx guşəsində sənətkarlıq xüsusiyyəti ilə diqqəti cəlb edən əşyaları görürük. Mis, dəmir və gildən hazırlanan bu mətbəx nümunələri içərisində kuzə, səhəng, dolça suyun daşınması və saxlanmasında, mis məcməyilər, xüsusilə milli bayramımız Novruzda paxlava bişirilməsində, digər saxsı qablardan isə müxtəlif yeməkləri bişirərkən və ya saxlayarkən istifadə edilirdi. Dəyərli sənətkarlıq nümunələri olan keramika məmulatları muzeyin incə, zərif eksponatları sırasında yer alır. Sənətkarlığın ən qədim sahələrindən biri olan bədii keramika məmulatları, boyalı qablar müəyyən vaxtlarda sadə həndəsi və nəbati motivlərlə işlənib, insanların qədim inanclarını, dünyagörüşünü özündə əks edir.

Musiqi irsimiz və incəsənətimizin təbliğ edildiyi ikinci otaqda eksponatlar sırasında tablolar və musiqi alətləri diqqəti çəkir. Bu otaqda Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əli Səfərov tərəfindən hazırlanan tablolar muzeyə fərqli rəng qatır. "Xalçaçı qız" tablosu özünəməxsus üslub tərzi ilə seçilir. Milli dəyərlərimizi özündə yaşadan xalçaçılıq sənəti ta qədimdən Naxçıvanda yaranıb və inkişaf edib. İnsanların düşüncə tərzini, tarixini özündə cəmləşdirən, ana və nənələrimizin əl əməyi, göz nuru olan Naxçıvan xalçaları işlənmə texnikası və bədiiliyinə görə seçilib və nəsildən-nəslə ötürülüb.

Milli sənətkarlıq guşəsində sərgilənən muğam üçlüyü – milli musiqi alətlərimiz olan tar, kamança və qaval Ali Məclisin Sədri tərəfindən muzeyə hədiyyə edilib. Bu guşədə yallı səhnəsinin təsvir olunduğu misgərlik nümunəsi və rəngarəng xalı göz oxşayır. Otaqda musiqi alətlərimizdən zurna, ney, tütək nümayiş olunur. Sonuncu otaqda xəncərlər, xalça, ayna, beşik əsas eksponatlardandır. Burada bəzək əşyası kimi istifadə olunan çəçik, ay-ulduzlu sırğa kimi zərgərlik nümunələri yer alıb. Keçmişdə qadın bəzəklərinin böyük əksəriyyətini boyun və sinə bəzəkləri təşkil edirdi. Çəçik bəzək elementlərinin sayına, qəlibkarlıq nümunələrinin bir neçə qatda halqalarla birləşdirilərək cərgəvi surətdə düzülüşünə, harmonik görünüşünə görə misilsiz və kamil zərgərlik nümunəsi olub, əsasən, qızıldan hazırlanır və üzəri qiymətli daşlarla bəzədilirdi.

Burada Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinovun "Dulusçu dünyası" adlı rəsm əsəri qədim peşə növü olan dulusçuluqla məşğuliyyətin gözəl ifadəsidir. Gilin xüsusi formaya salınması və xüsusi bişirilməsi ilə bağlı olan bu peşə ilə əvvəlcə, əsasən, qadınlar məşğul olub, daha sonra bu sahə texnikanın inkişafı ilə müstəqil sənət sahəsinə çevrilib. Muzeydə nümayiş olunan beşik isə ailə ənənələrinin təsviri kimi diqqətəlayiqdir. Ənənəvi ağacişləmə sənətinin nümunələrindən biri sayılan beşik ailə-nikah münasibətlərində, uşağın saxlanmasında mühüm əhəmiyyət daşıyırdı. Keçmişdə körpələr üçün beşik və nənni ən ümdə məişət vasitələri sayılmaqla, nəsildən-nəslə keçir, atanın, ananın körpə vaxtı saxlandığı beşikdən övladları da istifadə edirdi.

***Milli Dəyərlər Muzeyində hər eksponatın zəngin tarixi var. Bu muzeydə Dədə Qorqud, Əcəmi, qədimdə xalqımızın məşğul olduğu müxtəlif sənətkarlıq sahələrinin izlərinə rast gələcək, milli musiqimiz, geyimlərimiz, rəqslərimiz, mətbəx nümunələrimiz, bir sözlə, milli dəyərlərimizi özündə yaşadan dəyərli eksponatlarla tanış olacaqsınız. Bir daha bu Vətənin, bu xalqın övladı olmaqdan qürur duyacaqsınız. Vətəni sevmək də elə milli-mənəvi dəyərləri sevmək, Vətənə bağlılıq bayrağa, dilə, tarixə, adət-ənənəyə, dinə, ailəyə bağlılıq deyilmi? Odur ki, hər birimiz milli dəyərlərimizi unutmamalı, onu yaşatmalı və qorumalı, ondan bəhrələnməliyik.***

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Fövqəladə hallara hazırlıq diqqətdə saxlanılır

***Muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, belə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması istiqamətində qarşıya qoyulmuş vəzifələrin icrası daim diqqətdə saxlanılır.***

Yanvar ayında yeni tədris ilinin başlanması ilə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumlarında "Həyəcan" siqnalı üzrə məşğələlərin keçirilməsi təmin edilmiş, növbətçi yanğınsöndürmə xidmətinin təşkili, şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin, maddi-texniki təminatının və məişət şəraitinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər görülmüşdür.

Sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması məqsədilə 9 təhlükə potensiallı obyektdə texniki təhlükəsizliyə əməl olunması yoxlanılmış, 12 halda texniki təhlükəsizlik qayda və normalarının, 4 müəssisədə öncədən aparılmış yoxlama zamanı aşkar edilmiş texniki qayda pozuntularının aradan qaldırılmasına nəzarət olunmuş, 9 sayda texniki təhlükəsizlik qayda və normalarının pozulması halı aradan götürülmüşdür. 36 müəssisədə 43 qurğu sınaqdan keçirilmiş, 1 müəssisə təhlükə potensiallı obyektlərin dövlət reyestrində təkrar qeydiyyata alınmış, 1 texnoloji nəqliyyat vasitəsi dövlət qeydiyyatından keçirilərək texniki pasport və dövlət nömrə nişanı ilə təmin edilmiş, 3 tibb müəssisəsinə radioloji-gigiyenik pasport verilmişdir.

Mülki müdafiə işinin təşkili ilə bağlı 47 təşkilatda 1611 nəfərin iştirakı ilə maarifləndirici tədbir və qrup məşğələsi keçirilmiş, 4 kateqoriya üzrə 123 nəfərin mülki müdafiəyə və fövqəladə hallara hazırlanması təmin edilmişdir. 89 təşkilatın mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması ilə bağlı müəyyən olunmuş tələblərin yerinə yetirilməsi qanunvericiliklə müəyyən edilmiş qaydada yoxlanılmış və metodik köməklik göstərilmişdir. 27 ümumtəhsil məktəbində mülki müdafiə və fövqəladə hallar sahəsində müəyyən edilmiş sənədlər toplusunun icra vəziyyəti və 6-cı siniflərdə mülki müdafiə dərslərinin keçilmə səviyyəsi yoxlanılmışdır.

Muxtar respublikada yanğın təhlükəsizliyinin etibarlı təmin olunması və yanğına qarşı vəziyyətin yaxşılaşdırılması məqsədilə 222 obyektdə diqqətli, 250 obyektdə nəzəri və 7 obyektdə məqsədli yoxlamalar keçirilmişdir.

Hesabat ayında 3 min 837 yaşayış evinə baxış keçirilmiş, yanğın cəhətdən təhlükəli olan 34 elektrik, 133 şlanqla çəkilmiş qaz xətti dəyişdirilmiş, 3 ot-saman tayasının yeri dəyişdirilərək təhlükəsiz yerə köçürülmüş, 49 şofben tipli su qızdırıcısının və 277 tezqatlanan tüstü borusunun istismarı dayandırılmışdır. Keçirilən baxışlar zamanı 9 min 553 nəfər vətəndaş yanğına qarşı təlimatlandırılmış, 40 obyektlə icbari sığorta müqaviləsi bağlanmışdır.

Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və yerli icra hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqədə tikintisi başa çatdırılmış 5 obyektin istismara hazırlığı yoxlanılmış və "İstismara hazırlıq aktı" tərtib olunmuşdur. Tikinti işləri aparılan obyektlərin işçi və layihə sənədlərinin ekspertizası ilə bağlı 17 obyektin layihə sənədlərinin üzərində işlər aparılmışdır.

Mülki müdafiə alayında yenidənqurma və təmir-bərpa işləri davam etdirilərək 24 müşahidə kamerası, səfərbərlik və əşya anbarlarında 2 yanğın əleyhinə lövhə, 12 yanğınsöndürən balon, əmlakların yığılması üçün müasir metal konstruksiyalı rəflər, elektrik və enerji tənzimləyən qurğu quraşdırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Şərur rayonu, Mahmudkənd sakini Qasımov Nazim İsrafil oğlunun adına verilmiş 102013003636-10301 reyestr nömrəli texniki pasport və çıxarış, 102013003635-10301 reyestr nömrəli texniki pasport və çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 175